# Afrika ölkələri ilə siyasi münasibətlər iqtisadi əməkdaşlığa möhkəm platforma yaradıb

## Növbəti istiqamət Qvineya-Bisaudur



**Azərbaycanın beynəlxalq əlaqələri artıq qitələrin də sərhədini aşaraq daha geniş coğrafiyanı əhatə etməkdədir. O cümlədən Afrika ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli əlaqələrin qurulmasında mühüm addımlar atılıb. Bu ölkələrlə Azərbaycan arasında iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığı inkişaf etdirmək üçün geniş potensial mövcuddur.**

Dövlətimizin yürütdüyü düzgün siyasət, Prezident İlham Əliyevin sözü də imzası qədər etibarlı və keçərli olan lider kimi dünyada qazandığı nüfuz Afrika ölkələrinin də Azərbaycanla əməkdaşlığa marağını getdikcə artırır. Hazırda qitədə ən geniş iqtisadi əlaqələrə malik olduğumuz ölkələr Tunis, Cənubi Afrika Respublikası, Misir, Mərakeş, Liviya və Keniyadır. Son vaxtlar Konqo ilə enerji sahəsində əməkdaşlıq üçün addımlar atılıb. Belə ki, SOCAR ilə Konqo Milli Neft Şirkəti arasında "Congolaise de Raffinage" neft emalı zavodunun təkmilləşdirilməsi və genişləndirilməsinə dair sənəd imzalanıb. Həmçinin Misir şirkətləri ilə əməkdaşlıq istiqamətində işlər görülür.

Əslində, Azərbaycanla Afrika qitəsi ölkələri arasında iqtisadiyyatın bir çox sahələrində əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük imkanlar var. Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalonun Azərbaycana rəsmi səfəri zamanı məhz bu məsələlərə də toxunuldu. Bir qədər əvvəl isə Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud ölkəmizdə rəsmi səfərdə olmuşdu və həmin səfər çərçivəsindəki görüş və digər tədbirlərdə də iqtisadi əməkdaşlığın genişləndirilməsi məsələləri əsas mövzulardan biri idi.

Afrika ölkələri ilə neft-qaz sahəsində əməkdaşlıq əsasən xam neftin, neft və neft-qaz kimya məhsullarının, mayeləşdirilmiş təbii qazın (LNG) alqı-satqısı üzərində qurulub. SOCAR-ın Afrika regionu üzrə əməkdaşlıqda maraqlı olduğu ölkələr, ilk növbədə, Konqo Respublikası, Keniya, Ekvatorial Qvineya, həmçinin Misir, Əlcəzair, Nigeriya, Mərakeş, Liviya, Tunis, Seneqal və CAR-dır. Afrika qitəsində yerləşən bir çox ölkələr təbii minerallarla zəngindir. Odur ki, mədənçilik sahəsində də əməkdaşlıq imkanlarının araşdırılması məqsədilə Konqo, Syerra-Leone, Keniya, Niger, Burkina Faso və Mali kimi ölkələrin müvafiq qurumları ilə görüşlər keçirilib və müzakirələr aparılıb.

Azərbaycan Afrika ölkələrinə hərbi təyinatlı məhsulların ixracında da maraqlıdır. Somali Prezidentinin ölkəmizə səfəri zamanı müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq haqqında sənəd imzalanıb. Eyni zamanda Somali Prezidenti Azərbaycanın müdafiə sənayesi məhsulları ilə tanış olub.

Ölkəmizin Afrika dövlətləri ilə əməkdaşlığında əsas istiqamətlərdən biri "ASAN xidmət" modelinə dair təcrübə mübadiləsidir. Bu modelin tətbiqinə Afrika qitəsi ölkələri böyük maraq göstərdiklərini ifadə ediblər. "ASAN xidmət" təcrübəsinin ixracı istiqamətində Mərakeş, Uqanda və Efiopiya kimi ölkələrin müvafiq sahələr üzrə fəaliyyət göstərən qurumları ilə anlaşma memorandumları imzalanıb. Uqandada hazırda "ASAN xidmət" modeli əsasında 6 dövlət xidməti mərkəzi fəaliyyət göstərir. Somali Prezidentinin Azərbaycana səfəri zamanı imzalanmış sənədlərdən biri də məhz bu sahədə əməkdaşlığa dairdir. Hasan Şeyx Mahmud Bakıda "ASAN xidmət" mərkəzi ilə həmçinin əyani tanış olub. "ASAN xidmət" təcrübəsinin ixracı istiqamətində, eyni zamanda Esvatini, Konqo, Tanzaniya, Qambiya və Zimbabve ilə fəal danışıqlar davam etdirilir.

Azərbaycan qitə ölkələri ilə minatəmizləmə sahəsində də əməkdaşlıqda maraqlıdır və bu istiqamətdə müzakirələr aparır. Məlumdur ki, Afrika qitəsində bır sıra ölkələr mina və müharibənin digər partlayıcı qalıqları problemi ilə üzləşib. Bunlar qitənin 20-yə yaxın ölkəsi, o cümlədən Anqola, Çad, Konqo Demokratik Respublikası, Eritreya, Efiopiya, Mali, Mavritaniya, Niger, Nigeriya, Seneqal, Somali, Cənubi Sudan və Zimbabvedir. Təsadüfi deyil ki, ölkəmizdə mina təhlükəsinə qarşı mübarizə sahəsində hər il təşkil edilən beynəlxalq konfranslarda Somali, Anqola, Nigeriya, Sudan və Konqonun minatəmizləmə qurumlarının nümayəndələri fəal iştirak edirlər.

Afrika qitəsində yeni əməkdaşlıq istiqaməti Qvineya-Bisaudur. Hələ keçən ilin noyabrında Prezident İlham Əliyev və həmin ölkənin COP29-da iştirak etmək üçün Azərbaycanda səfərdə olan Prezidenti Umaru Sisoku Embalo görüş zamanı iqtisadi, neft-qaz, hərbi və hərbi-texniki sahələrdə əməkdaşlıq, tibb və mühəndislik sahələrində kadr hazırlığı, polis akademiyaları arasında əməkdaşlıq kimi məsələləri müzakirə etmişlər. Ötən ilin dekabrında isə Qvineya-Bisaunun xarici işlər, beynəlxalq əməkdaşlıq və icmalar naziri Karlos Pinto Pereyra ölkəmizə səfəri zamanı dövlətimizin başçısı tərəfindən qəbul edilib. Qonaq bir sıra nazirlik və digər qurumlarda görüşlər keçirib və bu zaman müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə əməkdaşlığa dair məsələlər müzakirə olunub.

Qvineya-Bisau Respublikası Prezidentinin Azərbaycana budəfəki rəsmi səfəri əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün yeni bir səhifə açdı. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalonun mətbuata bəyanatlarından da aydın görünür. Çıxışlarda da vurğulanıb ki, əməkdaşlıq üçün sahələr çoxdur. Təbii ki, bunların sırasında iqtisadi əməkdaşlığın da önəmi böyükdür. Prezidentimiz bu barədə belə demişdir: "Biz iqtisadi sahədə belə bir razılığa gəldik ki, konkret layihələr, investisiya imkanları müəyyən edilsin. Əminəm ki, beləliklə, biz ümumi məxrəcə gəlib çıxacağıq. Çünki biz artıq bir çox ölkələrə sərmayələr yatırırıq. Əlbəttə, biz məmnun olardıq ki, konkret layihələr fürsətini nəzərdən keçirək... Bir sözlə, gündəlik genişdir, ən vacibi isə odur ki, bizim sıx qardaşlıq münasibətlərimiz var, beynəlxalq təsisatlarda bir-birimizi dəstəkləyirik və biz konkret layihələri icra etmək istəyirik. Çünki siyasi münasibətlər bunun üçün bir platforma kimi xidmət edir".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 1 mart (№ 46).- S.6.